**UOT 327**

# REGİONAL VƏ BEYNƏLXALQ TƏŞKİLATLAR KONTEKSTİNDƏ TÜRK DÖVLƏTLƏRİ TƏŞKİLATININ HÜQUQİ İNTEQRASİYASI

**Leyla NƏBİYEVA**[*]

Məqalə redaksiyaya daxil olmuşdur: 13 may 2025; çapa qəbul edilmişdir: 27 may 2025; online-da çap edilmişdir: 25 iyun 2025.

Received: 13th of May, 2025; accepted: 27th of May, 2025; published online: 25th of June, 2025.

**Açar sözlər:** *Türk Dövlətləri Təşkilatı, Naxçıvan Sazişi, hüquqi inteqrasiya, beynəlxalq hüquq, 2040 Vizyonu*

## Giriş

Qloballaşma və regional inteqrasiyanın intensivləşdiyi müasir dövrdə dövlətlərarası əməkdaşlığın hüquqi-institusional əsaslar üzərində qurulması beynəlxalq münasibətlərin davamlılığı və sabitliyi baxımından xüsusi əhəmiyyət kəsb edir. Bu kontekstdə, Türk Dövlətləri Təşkilatının (TDT) formalaşması və inkişafı həm regional, həm də beynəlxalq hüquq sistemləri ilə inteqrasiyasının analizi aktuallıq qazanır. TDT-nin üzv dövlətləri ortaq dil, mədəniyyət və tarixi bağlarla birləşsə də, bu inteqrasiyanın hüquqi çərçivəyə salınması, təşkilatın beynəlxalq hüquqi subyekt kimi tanınması və onun qərarlarının hüquqi nəticələr doğurması məsələləri tədqiqata ehtiyac duyur. Naxçıvan Sazişi, "Ev Sahibi Ölkə" Anlaşması və Zirvə Bəyanatları kimi sənədlər təşkilatın hüquqi-institusional arxitekturasını formalaşdırmaqla yanaşı, onun beynəlxalq hüquq normalarına uyğunluğunu təmin etməkdədir. Eyni zamanda, "Türk Dünyası 2040 Vizyonu" sənədində beynəlxalq təşkilatlarla əlaqələrin dərinləşdirilməsi, hüquqi uyğunlaşdırma prosesi və beynəlxalq hüquq subyektləri ilə qarşılıqlı münasibətlərin inkişaf etdirilməsi kimi strateji istiqamətlər TDT-nin qlobal sistemə hüquqi inteqrasiyasının nə qədər vacib və kompleks bir proses olduğunu göstərir.

## 1. Türk Dünyası konsepti və Naxçıvan sazişi

Türk Dövlətləri Təşkilatının regional səviyyədə əhəmiyyəti ilk növbədə türkdilli dövlətlər arasında ortaq tarixi, mədəni və dil birliyinə əsaslanan əməkdaşlıq modelinin institusional müstəviyə keçirilməsi ilə şərtlənir. Mərkəzi Asiya, Qafqaz və Anadolu regionlarını əhatə edən bu platforma iqtisadi inteqrasiyanın gücləndirilməsi, enerji təhlükəsizliyinin təmin edilməsi, nəqliyyat infrastrukturunun uzlaşdırılması və ümumtürk mədəni irsinin qorunması istiqamətində strateji rol oynayır. Təşkilat çərçivəsində həyata keçirilən Orta Dəhliz, Türk Universitetlər Birliyi, Türk Mədəniyyəti və İrsi Fondu, eləcə də ortaq media layihələri kimi təşəbbüslər funksional və siyasi inteqrasiyanın dərinləşməsinə töhfə verir. Bununla yanaşı, TDT regional münaqişələrin qarşısının alınması və sabitliyin təşviqi baxımından da mühüm təsir imkanlarına malikdir. Məsələn, Azərbaycanın ərazi bütövlüyünə verilən dəstək və regional nəqliyyat infrastrukturunun bərpasına dair qəbul edilən qərarlar təşkilatın regionun siyasi gündəminin

[*] *doktorant, Bakı Dövlət Universiteti*
*e-mail:* leyla.turqay1115@mail.ru
**https://doi.org/10.30546/25194011.2025.14.2.221**

formalaşmasında artan rolunu nümayiş etdirir. Bu mənada, TDT yalnız ortaq etnik və dil bağları üzərində qurulan simvolik platforma olmaqdan çıxaraq, regionun geoiqtisadi və strateji arxitekturasında fəal iştirak edən təsirli bir aktora çevrilməkdədir.

Qlobal miqyasda isə TDT-nin önəmi onun çoxtərəfli diplomatik təşəbbüsləri və beynəlxalq sistemə inteqrasiya səyləri ilə daha da güclənir. Təşkilat təkcə üzv dövlətlər arasında deyil, həm də beynəlxalq aktorlar və qurumlarla, o cümlədən BMT, İƏT, Qoşulmama Hərəkatı və Avropa İttifaqı ilə əməkdaşlıq əlaqələrini genişləndirməyə çalışır. Macarıstanın müşahidəçi statusu ilə təşkilata daxil olması və Şimali Kiprə dəvətin göndərilməsi TDT-nin coğrafi baxımdan genişlənərək pan-türk çərçivəsindən pan-regional səviyyəyə keçid etdiyini göstərir. 2021-ci ildə qəbul olunmuş "Türk Dünyası 2040 Vizyonu" adlı strateji sənəd təşkilatın beynəlxalq hüquqi sistemdə aktiv subyekt kimi mövqeyini rəsmiləşdirərək, siyasi dialoq, iqtisadi əməkdaşlıq, beynəlxalq ticarət, təhlükəsizlik, rəqəmsal texnologiyalar və ekoloji məsələlər sahəsində qlobal inteqrasiyanı prioritet hədəf kimi müəyyən edir [5]. Beləliklə, TDT təkcə regional birgəlik modeli kimi deyil, həm də beynəlxalq sistemdə alternativ əməkdaşlıq formatı və formalaşmaqda olan yeni güc mərkəzi kimi çıxış edir.

Bu kontekstdə, Türk Dövlətləri Təşkilatının hüquqi əsasını təşkil edən sənəd "Türk Dünyası Şərti"dir. Sözügedən sənəd ortaq tarixi, dili və mədəni dəyərləri bölüşən türk dövlətləri arasında daha sistemli, institusional və davamlı əməkdaşlığın təmin olunmasına yönəlmiş strateji çərçivə funksiyası daşıyır. Sənədin giriş hissəsində Türk dünyasının coğrafi əhatə dairəsi və ortaq kimlik anlayışı vurğulanmaqla yanaşı, qədim Türk dövlətlərinin tarixi rolu ilə çağdaş inteqrasiya ehtiyacları arasında konseptual əlaqə yaradılır. Burada həm İslamdan öncəki dövrə, həm də Türk-İslam mədəniyyət mərhələsinə istinad edilərək, elmi və fəlsəfi irsə töhfə vermiş şəxsiyyətlərin mirasının qorunmasının və gələcək nəsillərə ötürülməsinin əhəmiyyəti ön plana çəkilir. Şərtin əsas hədəfləri arasında ortaq mədəni, tarixi və dil əsasında çoxşaxəli əməkdaşlığın gücləndirilməsi, türk dövlətləri arasında həmrəylik və qarşılıqlı etimadın möhkəmləndirilməsi, eləcə də Türk coğrafiyasında inteqrasiya meyillərinin təşviqi mühüm yer tutur. Sənəd, həmçinin bu əməkdaşlığın beynəlxalq hüququn əsas prinsiplərinə, xüsusilə suveren bərabərlik və ərazi bütövlüyü prinsiplərinə uyğun şəkildə həyata keçirilməsini normativ öhdəlik kimi müəyyən edir. Bununla yanaşı, sənəddə Türk mirasının ümumbəşəri mədəniyyətin ayrılmaz elementi kimi tanınması və bu mirasın qorunması və təşviqi üçün institusional səylərin gücləndirilməsi prinsipial xətt kimi irəli sürülür.

Şərtdə vurğulanan digər mühüm məqam türk mədəniyyətinin çoxmədəniyyətli və tolerant xarakterinin tarixi təcrübə kontekstində müxtəlif dini və etnik icmaların birgə yaşam modelinə töhfə verməsi ilə izah olunur. Eyni zamanda, sənəddə beynəlxalq ictimaiyyətlə qarşılıqlı münasibətlərin genişləndirilməsi və Türk dövlətlərinin elm, texnologiya, sənaye və innovasiya sahələrində qlobal inkişaf tendensiyalarına uyğun şəkildə bilik transferi həyata keçirərək öz sosial sistemlərinə inteqrasiya etmələrinin vacibliyi vurğulanır [9]. Əlifba birliyi və ortaq dil təşəbbüsləri sənədin strateji prioritetləri sırasında yer alır və bu təşəbbüslər yalnız simvolik deyil, eyni zamanda informasiya-kommunikasiya sahəsində vahid məkan formalaşdırmaq məqsədi daşıyır. Sənədin institusional hissəsində isə təşkilat daxilində fəaliyyət göstərən bütün qurumların fəaliyyətlərinin uzlaşdırılması və Koordinasiya Komitəsi vasitəsilə bu prosesin effektiv şəkildə tənzimlənməsi nəzərdə tutulur ki, bu da TDT-nin institusional dərinliyinin artırılmasına yönəlmiş mühüm addım kimi qiymətləndirilə bilər.

Naxçıvan Sazişi Türk Dövlətləri Təşkilatının hüquqi və institusional çərçivəsini müəyyənləşdirən ilk əsas sənəd kimi, təşkilatın konstitusion xarakterli normativ bazasını formalaşdırır. Bu sənəd Türk dövlətləri arasında əməkdaşlığın rəsmi hüquqi əsasını qoyaraq, bütövlükdə Türk dünyası üçün normativ-institusional inteqrasiyanın başlanğıc

nöqtəsi kimi çıxış edir. Sazişin preambulasında "Türk Dili Konuşan Ülkeler" ifadəsinin işlədilməsi, üzv dövlətlərin bərabər hüquqlu tərəfdaşlar kimi tanındığını və bu əməkdaşlığın ortaq dil, tarix və mədəni irs əsasında qurulduğunu açıq şəkildə göstərir. Beləliklə, saziş yalnız mədəni inteqrasiyanı deyil, həm də siyasi dialoq, iqtisadi əməkdaşlıq və təhlükəsizlik sahəsində əlaqələrin koordinasiyalı şəkildə inkişaf etdirilməsini nəzərdə tutur. Sazişin preambulasında yer alan "qarşılıqlı etimad, bərabərlik, dialoq, multikultural hörmət və ortaq gələcəyin qurulması" kimi prinsiplər təşkilatın fəaliyyət fəlsəfəsini müəyyən edir və bu əməkdaşlığın dövlətlər səviyyəsində məhdudlaşmayaraq, cəmiyyətlərarası inteqrasiyanı da əhatə etdiyini nümayiş etdirir. Bu baxımdan Naxçıvan Sazişi yalnız regional əməkdaşlıq təşəbbüsü deyil, eyni zamanda beynəlxalq hüququn əsas prinsiplərinə, başqa sözlə, ərazi bütövlüyü, suverenlik və suveren bərabərlik kimi fundamental dəyərlərə sadiqliyi ifadə etməklə, təşkilatın beynəlxalq legitimliyinin əsaslandırılmasına xidmət edir.

Eyni zamanda, saziş TDT-nin struktur-institusional arxitekturasını da müəyyənləşdirir. Dövlət Başçıları Şurası, Xarici İşlər Nazirləri Şurası, Katiblik, Təcrübəli Məmurlar Komitəsi və Ağsaqqallar Şurası kimi orqanların hüquqi statusları və funksional səlahiyyətləri bu sənəddə dəqiq şəkildə təsbit olunmuşdur [7]. Bu institutlar vasitəsilə qərarların qəbulu və icrası, təşəbbüslərin koordinasiyası və gündəliyin formalaşdırılması institusional bir ardıcıllıq və normativ çərçivə daxilində həyata keçirilir. Preambulada Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə edilən istinad isə TDT-nin beynəlxalq hüquqi sistemlə uzlaşmasının və qlobal hüquqi prinsiplərə uyğun fəaliyyət göstərmək niyyətinin strateji göstəricisi kimi qiymətləndirilə bilər. Beləliklə, Naxçıvan Sazişi, təşkilatın yaranmasını hüquqi cəhətdən təsdiqləməklə yanaşı, onun fəaliyyət istiqamətlərini, institusional mexanizmlərini və beynəlxalq hüquq sisteminə inteqrasiya imkanlarını da müəyyən edən təməl sənəd funksiyasını daşıyır.

Naxçıvan Sazişi Türk Dövlətləri Təşkilatının hüquqi varlığını təsbit edən və onun beynəlxalq hüquq normalarına uyğun şəkildə formalaşmasını təmin edən əsas normativ sənəd olaraq çıxış edir. Bu sənədin qəbul edilməsi ilə TDT ilk dəfə hüquqi şəxs statusu əldə etmiş, təşkilati strukturlar rəsmi şəkildə formalaşdırılmış və təşkilatın büdcəsinin idarə olunması, qərar qəbuletmə prosedurları və institusional davamlılıq kimi məsələlər normativ əsasda tənzimlənmişdir. BMT Nizamnaməsinə istinad edilməsi və beynəlxalq hüququn əsas prinsiplərinə sadiqliyin vurğulanması, təşkilatın beynəlxalq subyekt kimi tanınmasına yönəlmiş legitimlik prosesini hüquqi baxımdan möhkəmləndirmişdir. Bu səbəbdən Naxçıvan Sazişi yalnız TDT-nin regional struktur olaraq formalaşmasının deyil, həm də onun beynəlxalq münasibətlər sistemində hüquqi aktor statusunun təmin olunmasının əsas hüquqi aləti funksiyasını yerinə yetirir.

Bundan əlavə, Türkiyə Respublikası hökuməti ilə Türk Dilli Ölkələrin Əməkdaşlıq Şurası arasında imzalanmış Katibliyə dair Ev Sahibi Ölkə Anlaşması da təşkilatın (indiki adıyla TDT) institusional fəaliyyətinin hüquqi çərçivədə davamlılığını təmin edən əsas sənədlərdən biri hesab olunur. Bu anlaşmanın preambulasında 3 oktyabr 2009-cu il tarixində qəbul olunmuş Naxçıvan Sazişinə, xüsusilə onun Katibliyin İstanbulda yerləşəcəyini nəzərdə tutan 10-cu maddəsinə istinad edilir. Sözügedən sənəd Katibliyin yerləşdiyi ölkə ilə təşkilat arasında hüquqi münasibətləri, Katibliyin statusunu və Türkiyənin ev sahibi ölkə olaraq, daşıdığı öhdəlikləri aydın şəkildə müəyyənləşdirir.

Beynəlxalq təşkilatların hüquqi fəaliyyət mexanizmləri kontekstində, ev sahibi ölkə ilə imzalanmış bu tip müqavilələr təşkilatın fəaliyyətinin hüquqi, diplomatik və inzibati aspektlərdən səmərəli şəkildə həyata keçirilməsi baxımından fundamental əhəmiyyət kəsb edir. Müqavilənin birinci maddəsində "ev sahibi ölkə", "katiblik", "tərəf dövlətlər" və "Ağsaqqallar Şurası" kimi əsas anlayışların hüquqi izahı verilir ki, bu da

hüquqi dəqiqlik və gələcəkdə yaranacaq mümkün interpretasiya fərqlərinin qarşısının alınması baxımından xüsusi əhəmiyyət daşıyır. Anlaşma Türkiyənin Katibliyə ev sahibliyi ilə bağlı vergi güzəştləri, diplomatik və inzibati toxunulmazlıqlar, logistik dəstək və digər əməliyyat rahatlıqları daxil olmaqla zəruri hüquqi təminatları ehtiva edir [4]. Nəticə etibarilə, bu sənəd TDT-nin institusional fəaliyyətinin sabitliyini təmin edən və beynəlxalq hüquqa uyğunluğunu möhkəmləndirən mühüm hüquqi mexanizm rolunu oynayır.

**2. Zirvə bəyanatları və 2040 Vizyon sənədi**

Türk Dövlətləri Təşkilatının hüquqi-normativ əsaslarının inkişafında Zirvə Bəyanatları mühüm rol oynayan sənədlər kimi çıxış edir. 2011-2024-cü illər ərzində keçirilmiş Zirvə görüşləri nəticəsində qəbul edilən 15 bəyanat yalnız siyasi iradənin ifadəsi olmaqla kifayətlənmir, eyni zamanda təşkilatın institusional strukturlaşması və sektoral əməkdaşlıq istiqamətlərində hüquqi istinad mənbəyi kimi funksional əhəmiyyət kəsb edir. Bu sənədlər iştirakçı dövlətlərin ortaq razılığı əsasında formalaşan strateji prioritetləri və əməkdaşlığın normativ konturlarını müəyyən edən hüquqi-strateji çərçivələr kimi qəbul olunur. Məsələn, 2011-ci ildə Almatıda qəbul olunmuş Almatı Bəyannaməsi iqtisadi-ticarət əməkdaşlığının hüquqi əsaslarını müəyyən etmiş və ticarət maneələrinin aradan qaldırılması, sərmayələrin təşviqi və gömrük prosedurlarının uyğunlaşdırılması kimi sahələr üzrə gələcək normativ aktlar üçün ilkin hüquqi zəmin rolunu oynamışdır. 2013-cü il Qəbələ Bəyannaməsi isə nəqliyyat sahəsində inteqrasiya təşəbbüslərini hüquqi müstəviyə keçirmiş və Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu layihəsini Türk dövlətləri arasında logistik əlaqələrin gücləndirilməsi məqsədilə konkret normativ mexanizmlərlə əlaqələndirmişdir. Bu bəyanat texniki standartların vahidləşdirilməsi və sektorlararası hüquqi koordinasiyanın təmin edilməsi baxımından əsas sənəd statusuna malikdir [2]. Həmçinin diaspor siyasəti ilə bağlı müddəalar da bu sənəddə yer alaraq, təşkilat çərçivəsində diaspor təşkilatları arasında hüquqi çərçivədə əməkdaşlığın vacibliyini ortaya qoyur. 2019-cu ildə Bakıda keçirilmiş Yeddinci Zirvədə qəbul edilən bəyanatda isə Özbəkistanın tamhüquqlu üzv kimi qəbul edilməsi ilə yanaşı, kiçik və orta biznesin dəstəklənməsi istiqamətində normativ əməkdaşlıq mexanizmlərinin qurulması təşviq edilmişdir [1]. Ən mühüm mərhələlərdən biri isə 2021-ci ildə İstanbulda keçirilmiş Səkkizinci Zirvədə baş vermişdir. İstanbul Bəyannaməsi təşkilatın yeni institusional mərhələyə keçidini, yəni Türk Dövlətləri Təşkilatı adı ilə fəaliyyətə başlamasını hüquqi müstəviyə daşımaqla yanaşı, "Türk Dünyası 2040 Vizyonu" ilə birlikdə təşkilatın strateji inkişaf trayektoriyasını müəyyənləşdirən əsas sənəd kimi çıxış edir. Bəyanatda üzv ölkələr arasında hüquqi uyğunlaşdırma, ortaq xarici siyasət prinsiplərində koordinasiya və hüquqi harmonizasiya istiqamətində əməkdaşlıq çağırışları öz əksini tapmışdır. Eyni zamanda, Şimali Kipr Türk Cümhuriyyətinə müşahidəçi statusun verilməsi ilə bağlı müddəa təşkilatın beynəlxalq hüquq subyektləri ilə münasibətlərində yeni presedent formalaşdırmışdır [3]. Bu baxımdan, Zirvə Bəyanatları yalnız strateji iradənin ifadə forması deyil, həm də hüquqi-institusional quruculuq prosesinin tərkib hissəsidir.

2040 Vizyon Sənədi isə təşkilatın beynəlxalq sistemdə etibarlı aktor kimi çıxış etməsi üçün zəruri əməkdaşlıq xəttini müəyyənləşdirir. Bu sənəddə Türk Dövlətləri Təşkilatının regional və beynəlxalq təşkilatlarla, o cümlədən BMT, İƏT, ATƏT, Qoşulmama Hərəkatı, Aİ, KEİ, V4 və İƏİT kimi qurumlarla institusional münasibətləri gücləndirməsi və üçüncü dövlətlərlə əməkdaşlıq formatlarını genişləndirməsi xüsusi əhəmiyyət daşıyır [8]. Eyni zamanda, üzv dövlətlərin ortaq maraqlarının beynəlxalq platformalarda müdafiəsi məqsədilə koordinasiyalı fəaliyyətin təşkili əsas prioritetlərdən biri kimi müəyyən edilir. Vətəndaş cəmiyyətləri ilə əlaqələrin inkişafı da bu vizyonun vacib

istiqamətlərindən biri kimi göstərilir [6]. Bu çərçivədə, vətəndaş cəmiyyəti institutlarının yaradılması, onların siyasi və sosial-iqtisadi proseslərə cəlb olunması, həmçinin TURKPA, TÜRKSOY, Türk Akademiyası və Türk Mədəniyyəti və İrsi Fondu kimi əməkdaşlıq platformaları ilə sinerji yaratmaq məqsədilə institusional əlaqələrin gücləndirilməsi nəzərdə tutulur. Beləliklə, həm Zirvə Bəyanatları, həm də 2040 Vizyon Sənədi TDT-nin hüquqi-institusional inkişaf trayektoriyasını müəyyənləşdirən və onun beynəlxalq hüquq sisteminə inteqrasiyasını təmin edən əsas normativ sənədlər toplusu kimi çıxış edir.

Türk Dövlətləri Təşkilatının hüquqi sənədləri beynəlxalq hüququn əsas prinsipləri ilə yüksək dərəcədə uyğunluq təşkil edir və bu uyğunluq konkret nümunələrlə də sübut oluna bilər. Məsələn, 2009-cu ildə imzalanan və TDT-nin əsasını təşkil edən Naxçıvan Sazişində (Maddə 2) təşkilatın məqsədləri arasında üzv dövlətlər arasında qarşılıqlı inam və dostluq münasibətlərinin qurulması, regional və beynəlxalq təhlükəsizliyin təmin olunması, iqtisadi və siyasi əməkdaşlığın gücləndirilməsi xüsusi olaraq vurğulanır. Bu müddəalar Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsində (xüsusilə Maddə 1 və 2) qeyd olunan məqsədlərlə üst-üstə düşür. Bundan əlavə, TDT sənədlərində dövlətlərin ərazi bütövlüyü və suverenliyi prinsipinə sadiqlik açıq şəkildə qeyd olunur ki, bu da beynəlxalq hüququn *jus cogens* (məcburi hüquqi norma) səviyyəsində qəbul etdiyi əsas prinsiplərdəndir.

Digər bir nümunə 2021-ci ildə qəbul edilən "Türk Dünyası 2040 Vizyon Sənədi"dir. Sənəddə insan hüquqları, gender bərabərliyi, dayanıqlı inkişaf, ekologiya kimi məsələlərə toxunulması BMT-nin Davamlı İnkişaf Məqsədləri və Paris İqlim Sazişi kimi beynəlxalq sənədlərlə həmrəy mövqe nümayiş etdirildiyini göstərir. Həmçinin, TDT-nin fövqəladə zirvələrində, məsələn, 2020-ci ildə keçirilən COVID-19-a dair zirvədə Ümumdünya Səhiyyə Təşkilatı ilə əməkdaşlıq və beynəlxalq səhiyyə hüququna uyğun tədbirlərin önə çəkilməsi də təşkilatın beynəlxalq hüquqi çərçivəyə uyğun fəaliyyət göstərdiyini təsdiqləyən praktiki nümunədir.

## Nəticə

Beləliklə, tədqiqatın nəticəsi kimi görürük ki, Türk Dövlətləri Təşkilatının regional və beynəlxalq təşkilat kimi hüquqi əsasları, onun təsis sənədləri, institusional çərçivəsi və qəbul etdiyi normativ sənədlərlə formalaşmış və beynəlxalq hüququn prinsipləri ilə uzlaşan sistemli bir təməldə qurulmuşdur. 2009-cu ildə imzalanmış Naxçıvan Sazişi TDT-nin hüquqi binasının əsasını təşkil edərək onun məqsəd və prinsiplərini, strukturunu və fəaliyyət mexanizmlərini müəyyən etmiş, ardınca ev sahibi ölkə ilə bağlanan katiblik sazişi və 2011–2024-cü illər arasında keçirilən Zirvə Bəyannamələri bu hüquqi bazanı genişləndirərək normativ koordinasiyanı təmin etmişdir. Bu sənədlərdə BMT Nizamnaməsində əks olunan ərazi bütövlüyü, suverenlik, zor tətbiq etməmək, dinc qonşuluq, gender bərabərliyi, davamlı inkişaf, mədəni hüquqlar və çoxtərəfli diplomatiya prinsipləri ilə uyğunluq nümayiş etdirilmiş, beləliklə TDT yalnız türk dünyası çərçivəsində deyil, beynəlxalq hüquqi sistemdə də legitim aktor statusunu gücləndirmişdir. Bu hüquqi əsaslar sayəsində TDT üzv dövlətlər arasında koordinasiyanı institusional və hüquqi zəmində təmin edir, eyni zamanda qlobal hüquqi nizamla uzlaşaraq legitimlik və effektivlik balansını qoruyur.

Türk Dövlətləri Təşkilatının təsis sənədlərində və Zirvə Bəyannamələrində beynəlxalq əməkdaşlıq prinsipi açıq şəkildə vurğulandığından gələcəkdə digər beynəlxalq təşkilatlarla hüquqi əməkdaşlıq tamamilə mümkündür və hüquqi baxımdan qeyri-mümkün deyil. TDT-nin BMT, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, ECO, GUAM kimi qurumlarla normativ çərçivədə əməkdaşlığa açıq olduğunu bəyan etməsi beynəlxalq hüquq subyekti kimi qarşılıqlı tanınma, informasiya mübadiləsi, ortaq layihələr və

memorandumlar vasitəsilə əməkdaşlıq üçün hüquqi imkanların olduğunu göstərir. Bundan əlavə, təşkilatın beynəlxalq hüququn əsas prinsiplərinə (suverenlik, bərabərlik, çoxtərəfli diplomatiya və dinc əməkdaşlıq) sadiqliyi onu digər regional və qlobal təşkilatlarla hüquqi cəhətdən uyğun tərəfdaşa çevirir.

## ƏDƏBİYYAT

1. Bakı Bəyənnaməsi, 2019. (https://www.turkicstates.org/u/d/basic-documents-tr/7-zirve-bildirisi-14-tr.pdf).
2. Qəbələ Bəyannaməsi. (https://www.turkicstates.org/u/d/basic-documents-tr/3-zirve-bildirisi-10-tr.pdf).
3. Səkkizini Zirvə Bəyannaməsi. (https://www.turkicstates.org/u/d/basic-documents-tr/8-zirve-bildirisi-15-tr.pdf).
4. Türkiyə Respublikası hökuməti ilə Türk Dilli Ölkələrin Əməkdaşlıq Şurası arasında Türk Dilli Ölkələrin Əməkdaşlıq Şurası Katibliyinə dair Ev Sahibi Ölkə Anlaşması. (https://www.turkicstates.org/u/d/basic-documents tr/Ev_Sahibi_Ulke_Anlasmasi1_-20140417_194044.pdf).
5. Avcı C. Folklor ve Kültürel Güvenlik (II): Türk Devletleri Teşkilati 2040 Vizyon Belgesi'nin Sunduğu İmkânlar // Folklor Akademi Dergisi, 2024, 7(3), s. 1260-1275.
6. Ergenç S. Türk Dünyasında Bütünleşme: Türk Devletleri Teşkilatı ve Türk Dünyası 2040 Vizyonu. 2024. (https://shorturl.at/q3wYi).
7. Türk Dili Konuşan Ülkeler İşbirliği Konseyinin Kurulmasına Dair Nahçıvan Anlaşması. (https://www.turkicstates.org/u/d/basic-documents-tr/Nahcivan_Anlasmasi_Turkce_20140417_193951.pdf).
8. Türk Dünyası 2040 Vizyonu. (https://turkicstates.org/assets/pdf/haberler/turk-dunyasi-2040-vizyonu-2396-98.pdf).
9. Türk Dünyası Şartı. (https://turkicstates.org/u/T%C3% BCrk_D%C3% BCnyas% C4% B1_ Sart% C4%B1.pdf)

***Резюме***

***Лейла Набиева***

***Правовая интеграция организации тюрьмских государств в контексте региональных и международных организаций***

В исследовании рассматривается вопрос правовой интеграции Организации тюркских государств (ОТГ) на региональном и международном уровнях с точки зрения правовых документов, институциональной структуры и норм международного права. В условиях усиления глобализации и регионального сотрудничества укрепление правовой и институциональной базы ОТГ способствует её признанию как легитимного субъекта в международной системе. Основополагающие документы организации (Тюркская мировая хартия, Нахичеванское соглашение, Соглашение о принимающей стране и Заявления саммитов) не только формируют институциональную структуру, но и обеспечивают соответствие основным принципам международного права. Упоминание в документах ОТГ таких принципов, как территориальная целостность, суверенитет, многосторонняя дипломатия, гендерное равенство и устойчивое развитие, углубляет её интеграцию в глобальную правовую систему. Особенно важным является документ «Видение Тюркского мира – 2040», который определяет стратегическое направление развития организации, придавая правовое измерение сотрудничеству с международными организациями и вовлечению гражданского общества. Таким образом, ОТГ трансформировалась из культурно-политической платформы в региональную организацию, обладающую статусом юридического субъекта и действующую в соответствии с международным правом.

**Ключевые слова:** *Организация Тюркских Государств, Нахичеванское соглашение, правовая интеграция, международное право, Видение 2040.*

***Summary***

***Leyla Nabieva***

***Legal İntegration of Prison State Organizations in the Context of Regional and İnternational Organizations***

The study analyzes the regional and international legal integration of the Organization of Turkic States (OTS) from the perspective of legal documents, institutional structure, and international legal norms. In the context of intensified globalization and regional cooperation trends, the strengthening of OTS's legal and institutional foundations contributes to its recognition as a legitimate actor within the international system. The organization's core legal documents (the Turkic World Vision, the Nakhchivan Agreement, the Host Country Agreement, and the Summit Declarations) not only shape its institutional structure but also ensure compliance with key principles of international law. The inclusion of principles such as territorial integrity, sovereignty, multilateral diplomacy, gender equality, and sustainable development in OTS documents deepens its integration with the global legal framework. Particularly, the Turkic World 2040 Vision Document outlines the organization's future strategic direction, bringing cooperation with international organizations and the engagement of civil society into a legal dimension. Thus, OTS has evolved from a cultural-political platform connecting Turkic states into a regional organization that functions as a legal subject aligned with international law and institutional coherence.

**Key words:** *Organization of Turkic States, Nakhchivan Agreement, legal integration, international law, 2040 Vision.*

Baş redaktorun müavini s.e.d., prof. İbrahimova Gülzar İsaxan qızının rəyi əsasında çapa məsləhət görülmüşdür.